# “QURDAĞZI DUASI” POEMASINDA HƏSRƏT YANĞISI

## *“Qurdağzı duası” poemasında həsrət yanğısı "Söhrab Tahirə məktub" qəsidə-poeması əsasında təxmis-poemanın təhlili*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

### III HİSSƏ

***Vətən oğlu, yolumuzdan qara yellər, duman keçir,***
***Mənim çiynim körpü tağı, karvan-karvab zaman keçir.***
***Tufanlara, boranlara sinə gərən inadım var,***
***Ürəyim də özülüdür, o taylardan güman keçir.***

*Əli Rza XƏLƏFLİ.*

Kimsəyə sirr deyil ki, Yaxın Şərqdə baş verən hadisələr az qala dünyanın taleyini sual altında qoyub. Hamı qanlı müharibənin necə bitəcəyini qonşuluqda insana münasibətin ən qəddar yolunu seçmiş rejimin peşmanlıq hissini yaşayacağını gözləyir. Arzu edirik ki, hadisələr insanlığın mənafeyinə uyğun cərəyan etsin.

Bu günlərdə ziyalılar sanki iki cəbhəyə bölünüb; bir hisəsi rejimin süqutunu gözləyir, digər hissəsi hadisələri az qala Kərbəla müsibətinə bənzədir.

Mənim sözüm bunda deyil, məni düşündürən odur ki, Azərbaycan ziyalıları 35-40 milyon soydaşımızın taleyi haqqında düzgün mühakimə yürütsün, məsuliyyətlə düşünsün və məsuliyyətlə danışsın.

Yaxşı bilirik ki, etirazçıların iradəsini qırmaq üçün saysız-hesabsız insanlar edam olundu, meydanlarda güllələndi. Kadrlardan göründüyü kimi, təhlükəsizlik qüvvələrinin maşınları, texnikası şəhərdə küçələrdə etirazçıları tapdalayıb keçirdi.

Mən qayıdıram Azərbaycan dövlətinin rəsmi münasibətinə; Prezident İlham Əliyev son hadisələri xüsusi diqqətlə izləyir. İranda dövlət başçısının ölümü ilə bağlı səfirliyə gedib başsağlığı verdi. Bütün bunlarla kifayətlənmir, mənəvi və maddi yardımını da əsirgəmir. Düzdür, bizim yardımımız humanitar xarakter daşıyır, biz hərbi münaqişələrə qarışmırıq. Təəssüf ki, İranın antiinsani qüvvələri qonşulara, o cümlədən, bizə qərəzli münasibət göstərir. Naxçıvana atılan dronları yəqin ki, uzun müddət yaddan çıxarmayacağıq.

Prezident çox kəskin danışdı. İzahat tələb etdi, ancaq bununla belə, humanitar yardımını dayandırmadı. Zənnimizcə, Prezidentin bu münasibəti İranın qəddar xislətli generallarına çox acı bir dərsdir. Bəli, hadisələr necə inkişaf edirsə-etsin, Azərbaycan Prezidenti soydaşlarımızın mənafeyini heç kimə və heç nəyə qurban vermir.

O taydakı böyük Azərbaycan və Azəri türkünün taleyini bizim ziyalılarımızı, sənət adamlarımızı da ciddi şəkildə düşündürür. Elə mətnin əvvəlində epiqrafa çəkdiyim misraları da xatırlatmaq yerinə düşərdi. Düzdür, həmin misralarda Ə.Xələfli Vətən taleyini düşünən insanlara konkret və aydın şəkildə müraciət edir. Vətənlə bağlı ağrı və acılarını Vətənə oğullarına müraciətlə bildirir.

Biz əvvəlki yazılarımızda Ə.R.Xələflinin Söhrab Tahirə məktub” adlı qəsidə-poemasını dəfələrlə xatırlatmışıq. Həmin poemanı Cənub həsrəti ilə yaşayan Xalq şairi Söhrab Tahirə müraciətlə yazılmısının da təsadüfi olmadığını qeyd etmişik. Əsas odur ki, həmin əsərin mənəvi enerjisi bu gün də ruhumuza, varlığımıza sirayət edir.

Görünür, həmin sarsılmayan enerjinin təsiri altında Ə.R.Xələfli həmin mövzuya və həmin əsərə təzədən qayıdır. Bu dəfə özünün poetik düşüncələrini təxmis-poema şəklində ifadə etmək yolunu seçib.

Doğrusu, hər şairə nəsib olan şey deyil ki, həyatda baş verən hadisələrin həyəcanları onun varlığına bu qədər kəskinliklə sirayət etsin. Amma Ə.R.Xələfli sanki hadisələrin içindədir, hadisələrlə birgə nəfəs alır. Elə ona görə də qəsidə-poemasını yenidən xüsusi bir ilhamla, yüksək emosional duyğularla poetik məcraya yönəldir.

Əsərin əvvəli sanki müəllifin özünə müraciətlə, qətinnətinə, inamına güvənməsi ilə, inadını qorumaq hissilə başlayır.

Biz əsərin elə ilk sətirlərindəncə sanki xüsusi bir cazibəyə düşürük. Bütün varlığımızda bu cazibənin təsiri altında oluruq. Ən yaxşısı odur ki, əsərin ilk bəndlərini oxucu ilə birgə diqqətimizdən keçirək:

Qətiyyətim inadımın cəbhəsini yarmağında,
Qanadlanan İlhamım da düşüncələr yormağında.
Öz canımda yanğılarım varlığımı sarmağında;
Min cavabsız sual məni dara çəkir sormağında.
Gəlib-gedən biz olarıq, dünya özü varmağında.

Söhrab Tahir, salam olsun Qarabağdan öz odana,
Ahənrüba ruhunla sən məni tutdun söz oduna,
Mən gedərəm edamına Əli Rzanın öz adına,
Vətən dili, yurd diləyi... Xələflinin fəryadına,
Çatar-çatmaz... duası var-bayrağını taxmağında.

Göründüyü kimi, birinci bənddə müəllif həm özünün, həm də dünyanın həsbi-halını çəkir. Sanki insanlara və insanlığa xatırladır ki, dünya əbədidir, gəlib-gedən biz özümüz oluruq. Ona görə də yaxşı olar ki, elə bu həyat üçün yaşamağın əsas şərti kimi ədalətli mövqe tutaq. Yoxsa, bu dünya bizi də izsizsoraqsız olaraq öz dəyirmanında üyüdər.

Sonra müəllif Söhrab Tahirə xitabla salam göndərir, özü də Qarabağdan.

Yaxşı haldır, bununla sanki öz oxucusuna diktə edir ki, tez-gec dünyada haqq-ədalət öz yerini tapır. Deməк, Cənubi Azərbaycanın çoxmilyonlu Azəri türkləri də gərək ruhdan düşməsinlər. Bununla da özünün mənəvi mühiti ilə o taylı soydaşlarımız arasında qırılmaz mənəvi bağlılıq yaradır.

Onu da qeyd edək ki, “Qurdağzı duası” adı ilə təqdim olunan bu, təxmis-poema üç hissədən ibarətdir. Müəllif özünün zəngin söz ehtiyatına güvənərək qafiyə sisteminə, əsərin quruluşuna axıra qədər sadiq qalır. Müəllif sanki insanlığa müraciət edərək həyatı insan kimi yaşamağın nə qədər ağır olmasına baxmayaraq sərt mənəvi tələbləri qorumağın vacib olduğunu bildirir.

Hər kiminki izi yoxdur, zaman onu tez unudar,
Ayrılığın ağrısını çəkənləri dərd ovudar.
Varlığında yanan odlar, yanağında yaş qurudar;
Sən sözünə arxalandın, söz də səni uca tutar,
Gücü çatmaz susdurmağa qadağanın, yasağın da.

Tarix boyu çox qəzəbə, hirsə doldu Azərbaycan,
Araz üstə qanı süzən, kəsik qoldu Azərbaycan.
İlhamında azadlığa gedən yoldur Azərbaycan;
Özü boyda savaşlara səngər oldu Azərbaycan,
Dağlar sənə söykək durdu, sinə sərdin qarnağında.

Əsas odur ki, müəllif ədəbi düşüncələrində romantik xəyallara dalmır, sanki həyatla ünsiyyətini sərt tələblər daxilində davam etdirir.

Doğru deyir, “izi olmayanları həyat tez unudacaq”. O, bütün bu ritorik müraciət və sualları gətirib Azərbaycan obrazına bağlayır. Onun Azərbaycan obrazı bütövdür, güclüdür, hər cür tənə və təzyiqlərə davam gətirmək gücündədir. Və bunu özünəxas xüsusi emosional hisslərlə, duyğularla ifadə edir. Doğru olaraq bütöv Azərbaycanı öz haqqı və hüququ uğrunda mübarizə aparan qəhrəmana və onun səngərinə bənzədir.

Hər halda, Azərbaycan xalqı bütün ağrı və acılara baxmayaraq bütün sıxıntı və təcavüzlərə baxmayaraq dilini və varlığını günümüzə qədər qoruyub saxlayıb. Ona görə də müəllif dil birliyini amal birliyi kimi xarakterizə edir. Ürəyinin “canı” kimi Təbrizi vəsf edir. Əlbəttə, bu yolda qəmin və kədərin də onu müşayiət etdiyini unutmur. S.Vurğunu yada salır, onun sözləri ilə düşüncələrinə xüsusi poetik obraz bəxş edir: “Şair olan qəm də yeyir”. Əlbəttə, müəllif yaxşı bilir ki, qəmin yeyildiyi və qəmin yediyi bir məkanda hər cür dərdin, bəlanın insanı sarsıtması da təbiidir.

Səttar xanın şah xəyanətinə düçar olub yaralanaraq yataq xəstəsi olmasını xatırlamaq kifayətdir. Repressiyalar, edamlar, zindanlar... gör hələ nə qədər zillət və əzab ünvanları xatırlamaq olar.

Dil birliyi, yol birliyi, amal oldu elimizdə,
Tarix bizə fürsət verdi, saxlamadıq əlimizdə.
Neçə tamah əllərindən yara qaldı gülümüzdə;
“Adı sənin, dadı mənim” məsəli var dilimizdə,
Əkən-biçən kəndlinin də dəni yoxdur çanağında.

Ürəyimin Təbriz canı, qan ağlayan sözü geyir,
İstəyinə əl uzadan arzuların boyun əyir.
Dənə dolmuş ağ saçların kədərinə salam deyir;
Səməd Vurğun doğru deyib, “şair olan qəm də yeyir”,
Bu yollarda kimlər yorğun, kimlər xəstə, - yatağında.

Bir həsrətin apardığı şair köçü sözdən gedir,
Ömür yeyir yaşımızı, işığımız gözdən gedir.
Üzülürük canımızdan, təpərimiz dizdən gedir;
Əkən bizik, biçən bizik, alın təri bizdən gedir,
Torpaq bizim qismətimiz - peşrovunda, başağında.

Maraqlıdır ki, burada müəllif Vətən həsrətilə yaşayan şairin yaşının keçməsini, bir az da dəqiqləşdirsək, həyatdan köçməsini onun sözdən gedişi kimi xarakterizə edir. Zənnimizcə, S.Tahir kimi bir sənətkar əslində, cismən həyatdan gedə bilər, sözü ilə, sənəti ilə o, əbədi yaşarıdır.

Hicab, namaz sevdasında ötən özü batır hələ,
“Sər be zəmin, dümbe həva “... cənnət qəbzi satır hələ.
Şah olanın taca boyu çatmır hələ, çatır hələ;
Ala öküz kövşək çalır, xumar-xumar yatır hələ,
Xəbəri yox neyləyəcək, qalxan öküz durmağında.

Talan olan ümidlərin... əldən gedən yoxun-varın,
Nə gözləyir yol üstündə boynubükük ixtiyarın.
Hökm eləmir cavanlığa gücdən düşən iqtidarın;
Gözləməkdən cana doydu, çin olmadı yuxuların,
Əl-göz üstə... kurgan olan, dərdlərinin qalağında.

Müəllif xüsusi ağrı ilə xatırladır ki, bir vaxt o taydan gələn mühacirlər ümidli idilər ki, tezliklə azad olan Vətənlərinə qayıdacaqlar. Özüllərini qoyduqları Azərbaycanı bərqərar edəcəklər. Amma təəssüf ki, zaman keçdi və bu arzuların hamısı sanki çin olmayan yuxulara döndü. Müəllif yeri gəldikcə xalq ifadələrindən, klassik deyimlərdən də yararlanır. İnsanların cəhalətlə qorxudulmasını, onların mənəvi qandalda saxlanılmasının necə böyük faciə olduğunu diqqətə çəkir. Bunun üçün o, mənasını bilmədiyi, mahiyyətinə varmadığı dini ayinlərin xurafat olaraq insanları yuxuya verdiyini diqqətə çəkir. Əsl çılpaq həqiqəti “yatan öküz”, “qalxan öküz” obrazları ilə diqqətə çatdırır.

Xəzan vuran Vətən bağı... çiçəklərin gülüdürmü,
Təbriz üstə qanad çalan durnaların telidirmi.
Ümidləri göy əskidə İraq, Kərkük elidirmi;
Haqqı, sayı ayaqlanan Fizulinin dilidirmi,
Türkə “xərdir” deyənlərin, qəsdi nədir danmağında.

Yox olursan, dəyişirsən nəsil-nəsil, törə-törə,
Mövqelərin əldən gedir səngər-səngər, bərə-bərə.
Sənsən bizə Vətən bağı zirvə- zirvə, dərə- dərə;
Öz içindən alışırsan dərdlərini görə-görə,
Tüstülənən vulkanları mən görürəm yanmağında.

*(Davamı 11-ci səhifədə)*

# "QURDAĞZI DUASI" POEMASINDA HƏSRƏT YANĞISI

*(Əvvəli 10-cu səhifədə)*

Əsər boyu yer-yurd adları, tarixi şəxsiyyətlər xatırlanır və bu adlar mövzu ilə üzvi şəkildə bağlanır. Kərkük xatırlanırsa, onun arxasınca Təbriz də yaddaşa gətirilir. Füzulinin dilinin necə əzildiyinə, istismar olduğuna, sanki ayaqlandığına ağrı ilə göynəmli misralar həsr olunur. Müəllif yana-yana xatırladır ki, Azərbaycan dilinin sıradan çıxarılması ilə böyük bir xalqın mənəvi varlığına genosid siyasəti aparılır. Müəllif xüsusi yanğı ilə əsərinin qəhrəmanını böyük əzabkeş kimi xarakterizə edir. Həyat gbstərir ki, bu cür mübarizələr son nəticədə öz bəhrəsini verir. Elə ona görə də müəllif S.Tahirə müraciətlə onun mənsub olduğu xalğın məkanını "Vətən bağı" adlandırır. Təəssüf ki, bu bağ özünün gülüzarlığı, bülbülləri, gülləri ilə bizi çağırmır. Bizi yaraları ilə, göynəmləri ilə çağırır. Elə həyəcanlı, elə duyğulu misralar gəlir ki, oxucu sanki gözünün yaşı, qəlbinin yanğısı ilə gördüklərinə yanıb-yaxılır.

Tarixən Xan Çoban obrazı həmişə bəxtsizlik, talesizlik anlamında xatırlanır. Buradaya Xan Çoban obrazı da sanki sarsıdıcı ağrıları, göynəmləri ilə yaddaşımıza sirayət edir.

Söhrab Tahir - Vətən bağı... göynəm-göynəm, yara- yara,
Bu torpağın sinəsindən, qanlar axdı qara-qara.
Gördüyünə necə dözsün, ürəyimiz para-para;
Bəlalara düçar olduq qana-qana, vara-vara,
Əlbəttə ki, öz bəlası anlamağın, qanmağın da.

Zaman-zaman, bizi çəkir dara yazı, tora yazı,
Xan Çobanın qismətində sel aparan Sara yazı.
Oxunmayan bir bitikdir salxım-salxım qora yazı;
Göyçə-Dərbənd ağrısı var, bəxtimizdə Qarayazı,
Təbriz yanır od içində - bu taleyin sınağında.

Yana-yana, göynəyə-göynəyə Göyçəni, Dərbəndi xatırlayırıq. Müəllif sərrast Qarayazı obrazı ilə həm Azərbaycan türklərinin tarixi yurdu Qarayazını, həm də bəxt anlamında qara yazını poetik ruhu ilə canlandırır.

gəlir. Bəli, bu əfsanənin bu gün də qələbəyə çağırış motivini müəllif sanki qanunauyğun hesab edir. O, bu həqiqəti sanki Cəmşidin camında görür. Müəllif burada da "Cəmşidin camı" haqqındakı əfsanəyə işarə ilə istəklərinin yenə həqiqətə çevriləcəyinə inamını bildirir. Əfsanəyə görə, hökmdar Cəmşidin sehirli bir camı olub. O, həmin cama baxanda gələcəkdə baş verən hadisələri görə bilirmiş.

Burada belə bir fikri demək, lap yerinə düşər.

Əli Rza Xələflinin "Qurdağzı duası" poeması sanki Cəmşidin camıdır və gələcəkdən xəbər verir. Müəllif yeri gəldikcə çıxış yollarını da diqqətə çəkir. O, qırx milyonluq xalqı azadlığa çıxarmaq üçün sanki zamanı dayandırmağın vacib olduğunu bəyan edir. Çəkic-zindan məsəlini yada salır. Yəni hamımız çəkici eyni zindana vurmalıyıq.

Bir nizama gəlmək üçün, biz zamanı əyləyək ki,
"Çəkic-zindan" məsəli var, bir məsləhət eyləyək ki.
Haray salaq söz bilənlər cəm olsunlar söyləyək ki;
Min bəlaya sinə gərdin, Söhrab Tahir, neyləyək ki.
Son mənzili bu torpaqdır qorxağın da, qoçağın da.

Üstümüzə doğan Günəş dan üzünə nur dərirdi.
İnam bizə gəl-gəl deyir, bəxtimizə yol verirdi.
Yer əkilir, dən səpilir, tər tökülür, göz görürdü;
Fikirlərdə, duyğularda neçə fidan göyərirdi,
Yanıb gedir cücərtilər, fəsillərin qurağında.

Təəssüflər, yanğıla, ağrılar, acılar misralara dolub oxucunun üzərinə yeriyir. Bəlkə də müəllif bu qədər ağrını oxucunun üstünə göndərməzdi. Amma qoşun-qoşun ağrıları ona görə səfərbər edib oxucu üzərinə göndərir ki, qoy insanlar fikirlərdə, duyğularda göyərən fidanların yanmağına dözməsinlər. Fəsillərin qurağına etiraz etsinlər. Əlbəttə, fikir, düşüncə qurağından söhbət gedir.

Ən əsası odur ki, artıq zaman başqadır, bu xalqın da üzünə günəş doğmaqdadır və inam da bizə gəl-gəl deyir, bəxtimizə yol verməkdədir. Bir sözlə gözümüzü açıb dünyanı olduğu kimi görməliyik.

deyil; yaltaqlar nə qədər yağlarıq yalağında yağlansa da fərq etməz.

Müəllif yeri gəldikcə sənətin, istər rəssamlığın, istərsə də musiqinin təsir gücünü də yada salır. Muğam ifası zamanı xalqın necə səfərbər olduğunu və bu səfərbərliyin nəyə qadir olduğunu da poetik ovqata gətirir. Bu zaman o, gənc muğam ifaçısı Daşqını xatırlayır. Daşqının zil segahının sədalarını poeziyaya çevirir. Bu poetik gücün odu, atəşi ilə xainləri ütür, Avropada min bir gecə nağılları kimi insanları aldatmağa xidmət edən yalanları ifşa edir. Göstərir ki, xainlər yalanlara uymaqla dəyərlərimizin yadellilər tapdağında itməsinə şərait yaradır:

Bir Daşqın da öz səsiylə cəm eləyər oğulları,
Oda tutar Zil Segahın yanğısında ağılları.
Vəcdə gələn sözüm ütər xainləri, çuğulları;
Avropanın sarayları- "Min bir gecə" nağılları,
Nələr itdi, nələr getdi, yadellilər tapdağnda.

Ay nurunda həzin gələr yerin-göyün, pay sədası,
Haqq yolunu saya-salmaz mollaların şər ədası.
Hökmü verən fitvaların, nə qanunu, nə qaydası;
Gücü çatan yükü çəkib aparsa da, yox faydası,
Biz soxarlar yançağına, gönü qalın ulağın da.

Müəllif lirik təsvirləri ilə bəzən gərginliyi azaldır, poetik bir əhvalla hadisələrin axarına diqqəti yönəldir.

Ay işığı həmişə ümid rəmzidir, amma təəssüf ki, şərx xislətli molla rejimi insanları istədiyi kimi repressiya edir. Fitvaların bir qanunu-qaydası yoxdur. Xalq yalnız yüklənmiş ulağa bənzəyir. Xalq öz yükünü çəksə də, molla rejimi onun yançağına biz batırmaqdan sanki zövq alır.

Müəllif xalq ifadələrindən, dəqiq düşünülmüş sərrast deyimlərdən yararlanır. Müəllif bir misrada deyir ki, "Çoxlu mənsəb qulları da çıxdı püsdən, təvərədən", "Yağ saxlayan olarmı heç, it dərisi, qursağında". Doğru, sərrast ifadədir. Post-püst dəri deməkdir. Təvərə isə əhatə dairəsi. Yəni mənsəb qulları xalqa nifrətləri ilə o qədər qəzəbə dolublar ki, sanki hirslərindən dərilərinə

Bəzən adama o qədər qəribə gəlir ki, müəllif millətin tarixi taleyi ilə bağlı dərdləri bu qədər rəngin köz axarına necə çəkib gətirə bilir?..

Bəli, müəllifin özünün dediyi kimi sanki Azərbaycan türklərinin taleyi "Oxunmayan bir bitikdir, salxım-salxım qora yazı"dır. Nə isə... Əsas odur ki, müəllif Təbrizin bu gününü diqqətə çəkir. Çünki Təbriz od içində yanır. Sanki daha bir tale sınağındadır.

Unutmadıq ruhumuza qənim olan həsədləri,
Olqun-olqun yağılanan güdükdəki fəsədləri.
Üstümüzdən keçib gedir savaş yolu - qan sədləri;
Dağ-sütunu kişilərin, heykəlləşən cəsədləri,
Keşik çəkir dilimizə, güllə yeri papağında.

Bir dəmirçi Gavəsən ki, qəzəb yağar əda səndən,
Cəmşidin də camınacan gedib çatar səda səndən.
Dözümlərin cavab oldu hər yağıya, yada səndən;
Qəza qədər pənah yeri, sovuşmadı qada səndən,
Harda olsan gəlib tapar - sarayıında, otağında.

Əsəri oxuduqca müəllifin hansı fikir qatlarına endiyini sanki heyrətlə izləyirsən. Elə maraqlı metaforalar, bənzətmələr işlədir ki, elə qəribə diqqəti çəkən bədii təsvir və ifadə vasitələrinə müraciət edir ki, istər-istəməz dərin düşüncələrə dalırsan. Dil yolunda, Vətən yolunda, xalq yolunda həlak olan insanları canlı heykəl kimi gözümüzün önündə görürük. Bu heykəllər sanki dilimizə keşik çəkir. Və eyni zamanda onların papağında güllə yeri də görünür. Bu xalq Vətən uğrunda canını qurban verməyin, ölümə mərdanəliklə sinə gərməyin heykəl təsəvvürləridir.

Qədim Dəmirçi Gavə əfsanəsi var. Həmin əfsanəyə görə Dəmirçi Gavə zalım şah Zöhaka qarşı usyan edir və əlbəttə, bu mübarizədə qalib

Əvvəllər də qeyd etmişəm, müəllifin misralara gətirdiyi istər bədii obrazlar, istər tarixi şəxsiyyətlər kifayət qədər məzmuna malikdir.

Bu günlərdə professor İslam Qəribli Cənubi Azərbaycanın şəhid sənətkarı Əlirza Nabdil Oxtayın əsərlərini nəşr etdirib. "Əsərləri" nəşr etdirmək üçün müəllif saysız-hesabsız mənbələri ələk-vələk edib. Dil və Vətən şəhidi sənətkarın yaradıcılığının bütün mahiyyətini ehtiva edən iş görüb. Təəssüf ki, Nabdil Oxtay Şah cəlladları tərəfindən asılmaqla ölümə məhkum edilib.

Əli Rza Xələfli şəhid sənətkar adaşı Əlirza Nabdil Oxtayın adını əsərə gətirməklə insanların ruhuna mübarizlik əhvalı bəxş etməyə çalışır. Onun yandırıcı poetik duyğuları Nabdil Oxtayla bağlı xatirələrin altından qan qızaran güllər dərir.

Nabdil Oktay edamı da haray çəkir dil altından,
Unudulmaz şair özü dönüb gələr il altından.
Ağrı dolu xatirələr... qan qızarır gül altından;
Bədniyyətlər su buraxır, pərşüm edir əl altından,
Bata billik siyasətin batağında, sucağında.

Ağız büzüb "Türkə kimsən" - tənəsində ox duyuram,
Təmkinimdə durmağımı zənn eləmə, çox uyuram.
Günü doğan Qarabağın nəğməsini oxuyuram;
İnamımla Təbrizimə bəxt xalısı toxuyuram,
Yaltaqlar da yallanmada yağıların yalağında.

Müəllif türkə kimsən deyənləri oda tutur, sözlə yandırır. Türkə kimsən deyənlərə öz sözlərinin oxları ilə cavab verir. Və bu zaman Qarabağı xatırlayır. Təsadüfi deyil, qarabağ otuz il işğalda qaldıqdan sonra müzəffər Ali Baş Komandanın və xalqın birliyi və Ordunun gücü ilə düşməndən azad edildi. Və sanki burada öz misraları ilə Təbrizin bəxt xalısını toxuduğunu bəyan edir. Üstəlik də məqsədindən, məramından dönmək fikrində

sığışmır, hədlərini aşırlar.

Müəllif xüsusi yanğı ilə qeyd edir ki, molla rejiminin hərracında xalqın ruhu talan olur. Amma bu, belə gedə bilməz. O, inanır ki, bir gün mollabaşlar zəlil olacaqlar.

Bir də gəlməz nişangaha, ötüb keçsə ov bərədən,
Xeyir işi görə bilməz əməlində şər törədən.
Mən də fikir ovundayam söz güdürəm girəvədən;
Çoxlu mənsəb qulları da çıxdı püsdən, təvərədən.
Yağ saxlayan olarmı heç, it dərisi, qursağında.

Xalqın ruhu talan olur mollaların hərracında,
Xeyir olmaz bu alverin, idxalında-ixracında.
Zəlil olar mollabaşlar, bu savaşın taracında;
Bir çobanın oğluyam mən, atam Zalın arxacında,
Oğruların gözü qaldı arığında, axsağında.

Müəllif yeri gəldikcə öz həyatına da müraciət edir. Atasını xatırlayır, bir çobanın oğlu olduğunu deyir. Bildirir ki, atası çoban olsa da, onun sürüsündən, arxacından bir kimsə oğurluq edə bilməyib. Oğruların gözü qalıb atası Zalın arxacındakı arıqda, axsaqda. Yəni hətta bir arıq-axsaq heyvanı da oğurlaya bilməyiblər. Amma bir rejim bütöv bir xalqı güdaza verir.

Əlbəttə, müəllifin poetik gücü mənzərəni dünya boyu bir arenaya çıxarır. qırx milyonluq bir xalqın taleyini həll edən danışıqlarda mənafelərin toqquşmasını diqqətə çəkməklə bildirir ki, bu, ən böyük haqsızlıqdır. Hər bir xalq öz taleyini özü həll etməlidir.

Düşünürəm ki, hər bir sənətkar mənsub olduğu xalqın taleyi uğrunda öz sənəti ilə və meyar olaraq sağlam vicdanı ilə silahlanaraq mübarizə aparlamılıdır.

*(Davamı var)*